# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:**
**“İqtisadiyyat” kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**
**2025/2026-cı il**

## “İnteqrasiya prosesləri və beynəlxalq təşkilatlar”

### FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI

**(Sillabus)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fənnin adı | **İnteqrasiya prosesləri və beynəlxalq təşkilatlar** | | | | | |
| Fakültə | **İqtisadiyyat və idarəetmə** | | | | | |
| Kafedra | **İqtisadiyyat** | | | | | |
| Fənnin kodu | **01093** | | | | | |
| Fənnin növü | **Əsas** | | | | | |
| Tədris dili | **Azərbaycan** | | | | | |
| Tədrisin forması, qrup, tədris yükü | Əyani/qiyabi<br>**qrup** | Semestr<br>**Payız** | Tədris yükü:<br>**45 saat** | Mühazirə<br>**30 saat** | Məşğələ<br>**15 saat** | Kredit<br>**4** |
| Fənni tədris edən müəllim: S.A.A | | | | | | |
| Tələbələr üçün qəbul vaxtları | **gün, saat** | | | | | |
| Müəllimlə əlaqə: İş telefonu, e-mail ünvanı | **0125643706** | | | | | |

" Beynəlxalq inteqrasiya və beynəlxalq təşkilatlar " fənninin məqsədi tələbələrin dünya iqtisadiyyatında inteqrasiyanın formalaşmasının obyektiv şərtlərini, onun əsas xüsusiyyətlərini və inkişaf şəraitini kompleks şəkildə öyrənməsidir. Bu fənn həmçinin makro və mikro səviyyələrdə, millətlərarası və fövqəlmilli tənzimləmə mexanizmlərində inteqrasiyanın hərəkətverici qüvvələrini müəyyən etməyi hədəfləyir. Fənnin "Beynəlxalq inteqrasiya və beynəlxalq təşkilatlar" mənimsənilməsinin məqsədləri tələbələrdə müasir dünya əməkdaşlığı, qlobal siyasi, iqtisadi və mədəni birliyin formalaşması məsələlərinin nəzərdən keçirilməsi üçün nəzəri bazanın və ardıcıl baxış sisteminin formalaşdırılması, beynəlxalq münasibətlərin iştirakçıları kimi müasir beynəlxalq təşkilatların fəaliyyətinin və beynəlxalq münasibətlərin tənzimlənməsinin ən inkişaf etmiş mexanizmlərinin öyrənilməsindən ibarətdir.

**Kursun Məqsədləri**

**Bu kursu bitirdikdən sonra tələbələr aşağıdakıları edə biləcəklər:**

- Azərbaycan iqtisadiyyatının qlobal sistemə inteqrasiyasının əsas çətinliklərini araşdırmaq və təhlil etmək;
- Dünya iqtisadi əlaqələrinin mövcud vəziyyəti ilə bağlı statistik məlumatları toplamaq və seçmək, bu məqsədlə beynəlxalq və milli iqtisadi təşkilatların nəşrlərindən istifadə etmək;
- Beynəlxalq iqtisadi inteqrasiyanın formaları və inkişaf istiqamətləri haqqında biliklər sistemindən yararlanmaq;
- Qlobal iqtisadiyyatda baş verən prosesləri araşdırmaq, onların gələcək inkişaf perspektivlərini proqnozlaşdırmaq;
- Peşə fəaliyyətində humanitar və ictimai elmlərin əsas qanunlarını tətbiq etmək;
- Dövlətlərin və beynəlxalq təşkilatların mövcud normativ sənədləri əsasında gedən iqtisadi prosesləri təhlil etmək, eləcə də milli və beynəlxalq iqtisadi təşkilatların nəşrlərinə əsaslanmaq;
- Ölkələrin iqtisadi və xarici iqtisadi fəaliyyətinin sosial-iqtisadi göstəricilərini, həmçinin beynəlxalq iqtisadi təşkilatların fəaliyyətini xarakterizə edən göstəriciləri təhlil etmək.

İlkin şərtlər

**Mövzunun xülasəsi**

1"İnteqrasiya prosesləri və beynəlxalq təşkilatlar" fənninin predmenti, vəzifələri və nəzəri əsasları

2 Beynəlxalq iqtisadi inteqrasiyanın əsas forma və mərhələləri

3 Avropa İttifaqı klassik inteqrasiya bloku kimi və Qərbi Avropa dövlətlərinin regional iqtisadi təşkilatları

4 Postsosialist məkanında inteqrasiya prosesləri və Postsosialist dövlətlərinin regional iqtisadi təşkilatları

5 İslam Əməkdaşlıq Təşkilatı və türk dövlətləri təşkilatları

6 Asiya məkanında inteqrasiya prosesləri və Asiya dövlətlərinin regional iqtisadi təşkilatları

7 Afrikada inteqrasiya prosesləri və Afrika dövlətləri üzrə regional iqtisadi təşkilatları

8 Şimali və Cənubi Amerika regionlarında iqtisadi inteqrasiya təşəbbüsləri və regional iqtisadi əməkdaşlıq birlikləri

9 Birləşmiş Millətlər Təşkilatı və qlobal əməkdaşlıq mexanizmləri

10 Beynəlxalq ticarət təşkilatları (ÜTT, UNCTAD və s.)

11 Beynəlxalq maliyyə təşkilatları və iqtisadi əməkdaşlığın tənzimlənməsində rolu (BVF); Ümumdünya bankı qrupu

12 Qlobal İqtisadi Əməkdaşlıq Platformaları və Onların Rəqəmsal Dövrdəki Rolu (G7, G20, WEF və s.)

13 Beynəlxalq Reytinq və Qiymətləndirmə Təşkilatları: Qlobal Sıralamaların İnteqrasiya Proseslərində Rolu

14. Azərbaycanın beynəlxalq inteqrasiya proseslərində və beynəlxalq təşkilatlarda yeri və rolu

**Təyin olunmuş Mətnlər və Dərsliklər**

1. Azərbaycan BMT ailəsində, Bakı 2000
2. Balkır C. Uluslararası ekonomik bütünleşme: kuram, politika ve uygulama AB ve Dünya örnekleri İstanbul İU-2010
3. Герчикова И.Н. «Международные экономические организаци ; М.Консалтбанкир 2002
4. Beynəlxalq iqtisadi təşkilatlar- C. Kərimov; A. Orucov; T. Kərimova; Bakı-2008
5. Ertürk E. Uluslararası İqtisadi Birleşmeler, Bursa VİPAŞ-2002
6. *Икромов, Д. З.* Международная экономическая интеграция : учебник для вузов / Д. З. Икромов. — 2-е изд., перераб. и доп. — Москва : Издательство Юрайт, 2025. — 99 с. — (Высшее образование).

Kursun mövzuları

| Həftə | Mövzu | Mühazirə | MƏQSƏD |
|---|---|---|---|
| 1 | "İnteqrasiya prosesləri və beynəlxalq təşkilatlar" fənninin predmenti, vəzifələri və nəzəri əsasları | №1 | 1.Fənnin predmenti, vəzifələri və funksiyaları<br>2. İnteqrasiya proseslərinin təkamülü<br>3. İnteqrasiya birlikləri qlobal iqtisadi sistemin əsas faktoru kimi<br>4. İqtisadi inteqrasiya konsepsiyaları<br>5. İnteqrasiyanın siyasi-hüquqi və funksional sahəli konsepsiyaları |
| 2 | Beynəlxalq iqtisadi inteqrasiyanın əsas forma və mərhələləri | №2 | 1.İqtisadi inteqrasiyanın obyektiv ilkin şərtləri<br>2. İqtisadi inteqrasiyanın məqsədləri<br>3. İqtisadi inteqrasiyanın əsas məqsədləri və xüsusiyyətləri<br>4. İqtisadi inteqrasiya proseslərinin amillər sistemi və strukturu |
| 3 | Avropa İttifaqı klassik inteqrasiya bloku kimi və Qərbi Avropa dövlətlərinin regional iqtisadi təşkilatları | №3 | 1. Qərbi Avropada inteqrasiya proseslərinin genezisi və obyektiv ilkin əsasları<br>2. Avropa İttifaqı tam iqtisadi inteqrasiya birliyi kimi<br>3. Müasir qlobal iqtisadi sistemdə Avropa İttifaqının yeri və rolu |

| | | | |
|---|---|---|---|
| | | | 4. Avropa İnvestisiya bankı (AİB)<br>5. Avropa Yenidənqurma və İnkişaf bankı (AYİB) |
| 4 | Postsosialist məkanında inteqrasiya prosesləri və Postsosialist dövlətlərinin regional iqtisadi təşkilatları | №4 | 1. Postsosialist məkanında inteqrasiya proseslərinin əsas mərhələləri və xüsusiyyətləri.<br>2. Avrasiya İqtisadi İttifaqının yaranma səbəbləri, məqsədləri və funksiyaları.<br>3. MDB (Müstəqil Dövlətlər Birliyi) çərçivəsində iqtisadi inteqrasiya nə dərəcədə uğurlu olmsı və qarşıya çıxan əsas maneələr.<br>4. Regional iqtisadi təşkilatların postsosialist ölkələrin sosial-iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi.<br>5. Çin və Avropa İttifaqı kimi xarici güclərin postsosialist məkanında iqtisadi inteqrasiya proseslərinə təsiri aspektlərinin müşahidəsi.<br>6. GUAM və digər alternativ regional təşəbbüslərin postsosialist məkanında rolu |
| 5 | İslam Əməkdaşlıq Təşkilatı və türk dövlətləri təşkilatları | №5 | 1. İslam ölkələrinin beynəlxalq təşkilatları, onların əhəmiyyəti<br>2. İqtisadi əməkdaşlıq təşkilatı (ECO) əsas komitələri və vəzifələri<br>3. İslam Konfransı Təşkilatı, strukturu və vəzifələri<br>4. Türk Dövlətləri Təşkilatının yaranma səbəbləri və onun regional iqtisadi inteqrasiya prosesində rolu nədən ibarətdir?<br>5. Türk dövlətləri arasında ticarət, nəqliyyat və enerji sahələrində əməkdaşlıq hansı platformalarda həyata keçirilir və bu əməkdaşlığın nəticələri necə qiymətləndirilir?<br>6. Postsosialist türk dövlətlərinin İƏT və Türk Dövlətləri Təşkilatındakı mövqeyi və təşəbbüsləri necə inkişaf edir? |

| | | | |
|---|---|---|---|
| 6 | Asiya məkanında inteqrasiya prosesləri və Asiya dövlətlərinin regional iqtisadi təşkilatları | №6 | **1.** Avrasiya regionunda regional və subregional inteqrasiya birlikləri<br>2. Müstəqil Dövlətlər Birliyi (MDB) və GUAM<br>3. İqtisadi Əməkdaşlıq Təşkilatı<br>4. Müasir qlobal iqtisadi sistemdə Avrasiya regional iqtisadi inteqrasiya birliklərinin rolu |
| 7 | Afrikada inteqrasiya prosesləri və Afrika dövlətləri üzrə regional iqtisadi təşkilatları | №7 | 1. Afrika regionunda regional və subregional inteqrasiya birlikləri və əsas fəaliyyət xüsusiyyətləri<br>2. Afrika İqtisadi birliyi (AfİB)<br>3. Afrika İnkişaf Bankı (AfİB) və Afrika İnkişaf Fondu (AfİF)<br>4. Afrika ölkələrinin İnkişaf Birliyi |
| 8 | Şimali və Cənubi Amerika regionlarında iqtisadi inteqrasiya təşəbbüsləri və regional iqtisadi əməkdaşlıq birlikləri | №8 | 1. Amerika regionunda iqtisadi inteqrasiya prosesləri<br>2. Şimali Amerika Azad Ticarət Zonası (NAFTA)-(USMCA)<br>3. Müasir qlobal iqtisadi sistemdə (NAFTA)-(USMCA) rolu<br>4. Amerika Dövlətlərarası İnkişaf Bankı (ADİB); Karib İnkişaf Bankı (KARİBANK); Karib Ümumi Bazarı (KARİKOM)<br>5. And qrupu- And paktı |
| 9 | Birləşmiş Millətlər Təşkilatı və qlobal əməkdaşlıq mexanizmləri | №9 | 1. BMT-nin əsas vəzifələri, quruluşu və funksiyaları<br>2. BMT-nin Baş Assambleyası<br>3. İqtisadi və Sosial Şura (ECOSOC)<br>4. BMT sistemində iqtisadi əməkdaşlığın məqsəd və prinsipləri |
| 10 | Beynəlxalq ticarət təşkilatları (ÜTT, UNCTAD və s.) | №10 | 1.Ticarət üzrə beynəlxalq iqtisadi təşkilatların yaradılmasının zəruriliyi.<br>2. Dünya Ticarət Təşkilatının yaranması, fəaliyyəti və funksiyaları.<br>3. Dünya Ticarət Təşkilatının beynəlxalq ticarətin inkişafında rolu.<br>4. BMT-nin ticarət və inkişaf üzrə konfransı- (UNCTAD) |
| 11 | Beynəlxalq maliyyə təşkilatları və iqtisadi əməkdaşlığın tənzimlənməsində rolu | №11 | 1. Beynəlxalq maliyyə təşkilatlarının fəaliyyət mexanizminin əsas xüsusiyyətləri.<br>2. Beynəlxalq valyuta-maliyyə və |

| | | | |
|---|---|---|---|
| | (BVF); Ümumdünya bankı qrupu | | kredit təşkilatları.<br>3. İqtisadi əməkdaşlığın inkişafında beynəlxalq valyuta-maliyyə və kredit təşkilatlarının rolu. |
| 12 | Qlobal İqtisadi Əməkdaşlıq Platformaları və Onların Rəqəmsal Dövrdəki Rolu (G7, G20, WEF və s.) | №12 | 1. G7 və G20-nin iqtisadi inteqrasiya baxımından oxşar və fərqli cəhətləri.<br>2.WEF-in (Davos Forumunun) qlobal iqtisadi qərarvermədə rolu və təsiri.<br>3.Rəqəmsal transformasiya (məsələn, süni intellekt, big data, kriptovalyutalar) bu platformaların gündəliyinə təsiri.<br>4Bu platformaların inklüzivlik dərəcəsi. İnkişaf etməkdə olan ölkələr üçün real imkanların yaradılması.<br>5. Rəqəmsal çağırışlarla mübarizədə beynəlxalq iqtisadi platformaların rolu.<br>6.Bu platformalar beynəlxalq iqtisadi inteqrasiyanın əsas oyunçularıdır.<br>7.G7 və G20 kimi qurumlar qlobal iqtisadi siyasətlərin koordinasiyası və inteqrasiya üçün mühüm rolu. |
| 13 | Beynəlxalq Reytinq və Qiymətləndirmə Təşkilatları: Qlobal Sıralamaların İnteqrasiya Proseslərində Rolu | №13 | 1.Beynəlxalq reytinq agentliklərinin obyektivliyi və müstəqilliyi ilə bağlı tənqidlər.<br>2.S&P, Moody's və Fitch kimi reytinq qurumlarının verdiyi qərarlar inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişafına təsiri.<br>3."Doing Business" və "Global Competitiveness Index" kimi indekslərin ölkələrin qlobal inteqrasiyasında rolu.<br>4Reytinq agentliklərinin qərarlarının ölkələrin xarici investisiya cəlbetmə qabiliyyətinə təsiri.<br>5.Alternativ qiymətləndirmə metodları mövcudluğu və etibarlılığı. |
| 14 | Azərbaycanın beynəlxalq inteqrasiya proseslərində və beynəlxalq təşkilatlarda yeri və rolu | №14 | 1. Azərbaycan Respublikasının regional iqtisadi inteqrasiya prosesində iştirakının müasir problemləri və perspektivləri<br>2. Azərbaycan Respublikasının BMT- |

| | | | |
|---|---|---|---|
| | | | nin səlahiyyətli üzvü kimi və onun beynəlxalq iqtisadi təşkilatlarda iştirakı.<br>3. Azərbaycan Respublikasının BMT-nin ixtisaslaşdırılmış idarələrində yeri və rolu.<br>4. Azərbaycan Respublikasının regional təşkilatlarda iştirakı |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

### İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.